# "YANLIŞ ÜNVAN"IN TƏQDİMATI





Bu yaxınlarda AYB-də gənc şair və nasir Rəşad Mahmudoğlunun "Yanlış ünvan" adlı povestinin təqdimatı keçirildi. Təqdimata təşrif buyuran bir çox elm və ədəbiyyat, eləcə də ictimai-siyasi nümayəndələr gənc yazar Rəşad Mahmudoğlunun şəxsi keyfiyyətlərindən, Vətənə, xalqa bağlı olduğundan söz açdılar. Rəşad Mahmudoğlunun "Yanlış ünvan" adlı kitabını təhlil edərkən, onun müasir gəncliyə, gələcəyimiz olan bugünki nəslimizə önəmli bir əsər olduğunu və riyallığı əks etdirməklə bədii, poetik təsirindən danışdılar...

Vərdiş etdiyimiz eşq əsərlərindən fərqli olaraq, Rəşad Mahmudoğlu məhəbbətin riyakarlıqdan və saxtakarlıqdan uzaq olduğunu özünəməxsus şəkildə, cəsarətlə qələmə almışdır. Tədbir maraqlı və rəvan keçdiyindən bəzi qonaqlar bu masa arxasında və bu məkanda dəfələrlə təqdimatlarda iştirak etmələrinə baxmayaraq, bu tədbirin başqa bir özəlliyi və gözəlliyi olduğunu etiraf etdilər. Bu da yəqin ki, gənc müəllifin duyğu və istəklərinin təmizliyindən, ülviliyindən, irəli gəlirdi. Ədəbiyyatda çətin yollarında bu gənc qələm sahibinə uğurlar arzu edirik və ondan daha da sanballı əsərlər gözləyirik...

***Kredo***

Kredo 2019.- 9 may.- S.7.